UNEC, İl 13, Cild 13, yanvar – mart, 2025, səh. 102-114
UNEC, Year 13, Volume 13, January – March 2025, pp. 102-114

# AVROPA İTTİFAQININ AZƏRBAYCAN VƏ MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİ İLƏ TRANSREGİONAL İQTİSADİ ƏMƏKDAŞLIĞININ İNTEQRASİYA MEYİLLƏRİ

*Daxil olub: 17 fevral 2025-ci il*
*Qəbul olunub: 17 mart 2025-ci il*

*Received: 17 February 2025*
*Accepted: 17 March 2025*

***Murad Axundov***
*doktorant, Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası*
*makhundov77@gmail.com*
*https://orcid.org/0009-0009-8266-9501*

**Xülasə**

Məqalədə Avropa İttifaqı (Aİ) və Mərkəzi Asiya arasında transregional əməkdaşlığın inkişafından və bu məkanda Azərbaycanın rolundan bəhs edilir. Aİ, Azərbaycan və Mərkəzi Asiya arasında transregional əməkdaşlığın potensialı və inteqrasiya meyilləri araşdırılır. Transregional səviyyədə ticarət və logistika əlaqələrinin inkişafının əsas amilləri və problemləri müəyyən edilir. Məqalədə vurğulanır ki, Azərbaycanın iştirakı ilə reallaşdırılan layihələr Aİ ilə Mərkəzi Asiya ölkələri arasında ikitərəfli və regional ticarət təşəbbüsləri üçün tamamlayıcı effektə malikdir və regional əməkdaşlıq proseslərinin çevik mexanizmlərini təmin edir. Tədqiqat iki əsas istiqaməti əhatə edir: Aİ-nin Azərbaycan və beş Mərkəzi Asiya ölkəsi (Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan) arasında iqtisadi əlaqələrin inkişaf meyillərinin müəyyən edilməsi və əlverişli əməkdaşlıq mühitini formalaşdıran amillərin təhlili. Tədqiqatın əsas məqsədi Aİ-nin Azərbaycan və Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığının perspektivlərinin daha aydın başa düşülməsinə töhfə vermək və transregional əməkdaşlığın inteqrasiya potensialını araşdırmaqdır. Məqalədə  inteqrasiya məkanının inkişafı üzrə konseptual təkliflər irəli sürülmüşdür.

***Açar sözlər:*** *Avropa İttifaqı, Azərbaycanın xarici iqtisadi siyasəti, Mərkəzi Asiya, transregional əməkdaşlıq, regional inteqrasiya.*

# INTEGRATION TRENDS OF TRANS-REGIONAL ECONOMIC COOPERATION BETWEEN THE EUROPEAN UNION AND CENTRAL ASIAN COUNTRIES

***Murad Akhundov***
*Ph.d. student, The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

**Abstract**

The article discusses the development of trans-regional cooperation between the European Union and Central Asia and the role of Azerbaijan in this space. The potential and integration trends of trans-regional cooperation between the EU, Azerbaijan and Central Asia are examined. The main factors and problems of the development of trade and logistics relations at the trans-regional level are identified.The article emphasizes that projects implemented with the participation of Azerbaijan have a complementary effect on bilateral and regional trade initiatives between the EU and Central Asian countries and provide flexible mechanisms for regional cooperation processes.The study covers two main areas: identifying the development trends of economic relations between the EU and the five Central Asian countries (Kazakhstan, Kyrgyzstan, Tajikistan, Turkmenistan and Uzbekistan) and analyzing the factors that shape a favorable cooperation environment.The main objective of the study is to contribute to a clearer understanding of the prospects for EU cooperation with Azerbaijan and Central Asian countries and to explore the integration potential of trans-regional cooperation.The article puts forward conceptual proposals for the development of the integration space.

***Keywords:*** *European Union, foreign economic policy of Azerbaijan, Central Asia, trans-regional cooperation, regional integration.*

## ИНТЕГРАЦИОННЫЕ ТЕНДЕНЦИИ ТРАНСРЕГИОНАЛЬНОГО ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА ЕВРОПЕЙСКОГО СОЮЗА С АЗЕРБАЙДЖАНОМ И СТРАНАМИ ЦЕНТРАЛЬНОЙ АЗИИ

***Мурад Ахундов***
*докторант, Академия государственного управления*
*при Президенте Азербайджанской Республики*

**Резюме**

В статье рассматривается развитие трансрегионального сотрудничества между Европейским Союзом и Центральной Азией и роль Азербайджана на этом пространстве. Изучается потенциал трансрегионального сотрудничества и тенденции интеграции между ЕС, Азербайджаном и Центральной Азией. Выявлены основные факторы и проблемы развития торгово-логистического сотрудничества на трансрегиональном уровне. В статье подчеркивается, что проекты, реализуемые с участием Азербайджана, оказывают взаимодопол-няющее влияние на двусторонние и региональные торговые инициативы

между ЕС и странами Центральной Азии и предоставляют гибкие механизмы для процессов регионального сотрудничества. Исследование охватывает два основных направления: выявление тенденций развития экономических отношений между ЕС и Азербайджаном и пятью странами Центральной Азии (Казахстаном, Кыргызстаном, Таджикистаном, Туркменистаном и Узбекистаном) и анализ факторов, формирующих благоприятную среду сотрудничества. Основная цель исследования — способствовать более четкому пониманию перспектив сотрудничества ЕС с Азербайджаном и странами Центральной Азии, а также изучить интеграционный потенциал трансрегионального сотрудничества. В статье выдвигаются концептуальные предложения по развитию интеграционного пространства.

***Ключевые слова:*** *Европейский Союз, внешнеэкономическая политика Азербайджана, Центральная Азия, трансрегиональное сотрудничество, региональная интеграция.*

## Giriş

Azərbaycan və Mərkəzi Asiya regionu ölkələri Avropa İttifaqı (Aİ) üçün geostrateji əhəmiyyətə malikdir. Azərbaycan Avropa İttifaqının Xəzər regionuna çıxışı üçün əlverişli strateji məkandır. Mərkəzi Asiya regionu Çin, Əfqanıstan və Yaxın Şərqə bir körpüdür. Xəzər və Mərkəzi Asiya regionu Aİ üçün əhəmiyyətli enerji idxalı mənbəyidir. Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan Mərkəzi Asiya ölkələri olaraq bəzi ümumi xüsusiyyətlərə malikdirlər: dənizə çıxışı yoxdur, onların ixracı xammalyönlüdür və region ölkələri qonşu dövlət-lərin, yəni Rusiya və ya Çinin bazarlarından əhəmiyyətli təsiri və asılılığı ilə üzləşirlər. Bununla belə, onlar Aİ ilə ticarət həcmlərinə görə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Son illərdə müəyyən iqtisadi artıma baxmayaraq, Mərkəzi Asiya ölkələri iqtisadiyyatın şaxələndiril-məsinin aşağı səviyyəsi və ticarət tərəfdaşlarından yüksək asılılıq ilə xarakterizə olunur.

Mərkəzi Asiyadakı beş ölkədən üçü (Qırğızıstan, Tacikistan və Özbəkistan) Ümumiləşdirilmiş Preferensiyalar Sistemi (Generalized System of Preferences - GSP) və GSP+ vasitəsilə Aİ bazarına əlverişli çıxışdan faydalanır, digər iki öklə - Qazaxıstan və Türkmənistan, nisbətən yuxarı orta gəlir səviyyəli iqtisadiyyatlar kimi, artıq bu sistemdən faydalana bilməz.

Avropa Komissiyasının məlumatlarına əsasən qeyd etmək lazımdır ki, müasir Ümumiləşdirilmiş Preferensiyalar Sistemi (GSP), benefisiar ölkənin inkişaf səviyyəsinə əsaslanaraq, tarif üstünlükləri və öhdəlik-lərin üç səviyyəsini təsnif edir.

Yəni ümumi GSP razılaşmasına əsasən, uyğun benefisiarlar Aİ-yə idxal olunan məhsulların tarif həddlərinin 66%-i üzrə rüsum endirimləri alırlar. İkinci razılaşma - GSP+ inkişaf etməkdə olan ölkələrə əsasən insan hüquqları, əmək, idarəetmə və digər davamlı inkişaf konvensiyalarının yerinə yetirilməsindən asılı olan tarif həddlərinin 66%-i üzrə sıfır rüsumdan faydalanmaq üçün stimul verir. Nəhayət üçüncüsü - Silahdan başqa hər şey (EBA) razılaşması silahlar istisna olmaqla, Ən Az İnkişaf etmiş Ölkələrdən (Least Developed Countries (LDCs)) idxal üçün rüsumsuz girişi təmin edir.

Qeyd etmək lazımdır ki, GSP+ davamlı inkişaf və yaxşı idarəetmə üçün xüsusi həvəsləndirici razılaşmadır, əhəmiyyətinə gəldikdə isə, əmək və insan hüquqları, ətraf mühitin və iqlimin qorunması və yaxşı idarəetmə ilə bağlı 27 beynəlxalq konvensiyanı həyata keçirən aşağı və aşağı orta gəlirli ölkələr üçün eyni tarifləri 0%-ə endirir. Regional inteqrasiya proseslərini genişləndirən iki Mərkəzi Asiya ölkəsi, Qazaxıstan 2010-cu ildən və 2015-ci ildən Qırğızıstan Respublikası Avrasiya İqtisadi İttifaqının (Aİİ) üzvüdür, Özbəkistan 2020-ci ildə Aİİ-nin müşahidəçisi olub, Azərbaycan bu regional birliyə daxil olan ölkələrlə ikitərəfli münasibətlərini inkişaf etdirir [1]. GSP+ proqramına qoşulmaq üçün ölkə "ən az inkişaf etmiş ölkə statusu" daşımalı və ətraf mühitin mühafizəsinə, keyfiyyətin idarə edilməsinə dair BMT-nin əsas Konven-siyalarına qoşulmalı və ölkədə bu Konvensiyaların müddəalarını tam təmin edən qanunvericilik bazası mövcud olmalıdır. Hal-hazırda ABŞ, İsveçrə, Norveç və Yaponiya Azərbaycan mənşəli məhsulların GSP çərçivəsində bu ölkələrə ixrac edilməsinə imkan yaradır [2].

Aİ-nin Mərkəzi Asiya ilə ticarət əlaqələri inkişaf edir və Aİ hazırda region ölkələrinin əsas ticarət tərəfdaşıdır və onun ümumi xarici ticarə-tinin təxminən üçdə birini təşkil edir. Buna baxmayaraq, Aİ-nin Mərkəzi Asiya ilə ümumi ticarət dövriyyəsi aşağı olaraq qalır və ticarət inteqrasi-yasının inkişaf mexanizmlərinin genişləndirilməsi əhəmiyyətli dərəcədə aktualdır. Aİ eyni zamanda Azərbaycanda və Mərkəzi Asiyada ən böyük xarici sərmayədardır və regionda yığılmış sərmayənin 40%-dən çoxu blokdan gəlir. Qeyri-preferensial genişləndirilmiş ikitərəfli tərəfdaşlıq və əməkdaşlıq çərçivələri (EPCA) üzrə danışıqlar strateji hədəfləri nəzərdə tutur. Aİ Azərbaycan və Mərkəzi Asiya regionu ölkələri arasında ümumi əməkdaşlığı dəstəkləyir və bu strategiyanın reallaşdırıl-masında Azərbaycanla qarşılıqlı əlaqələrin potensialından istifadə gələ-cək hədəflərə yönəlməni təmin edir. Aİ regional əməkdaşlıq, enerji və əlaqə məsələləri də daxil olmaqla, Mərkəzi Asiya ilə əlaqələrini güclən-dirir. Lakin daha çox nüfuz qazanmaq üçün Avropa İttifaqı qeosiyasi müstəvidə region ölkələrinin iqtisadi maraqlarını təmin edən transre-gional alternativlər təqdim etməlidir.

## Regional ticarətin strukturunun zəif qarşılıqlı tamamlanması və ticarət inteqrasiyasının vəziyyəti

Aİ regionun əsas ticarət tərəfdaşıdır və Mərkəzi Asiya ölkələrinin ümumi xarici ticarətinin əsasını təşkil edir. Aİ-nin Mərkəzi Asiyadan mal idxalı artmaqda davam edir (2022-ci ildə 67%) və Aİ-dən Mərkəzi Asiyaya ixrac da (77%) artıb [1]. Mərkəzi Asiyanın Aİ-yə ixracı əsasən bir neçə əmtəə, xüsusilə xam neft, qaz, metallar və pambıq lifinə yönəlib. Aİ ixracında maşın və nəqliyyat avadanlığı və digər istehsal olunan mallar üstünlük təşkil edir. Belə məhsullar Aİ-nin regiona ixracının yarıdan çoxunu təşkil edir. Aİ-nin regiondakı strateji maraqlarını əks etdirən və üç təmələ diqqəti artıran Yeni Mərkəzi Asiya Strategiyasını 2019-cu ildə qəbul etdi: dayanıqlıq, regional əməkdaşlıq və rifah. Bu strategiya son illər ərzində regional əlaqələrə dinamizm verib (Cədvəl 1).

**Cədvəl 1. Aİ-nin region ölkələri ilə ticarət-investisiya əməkdaşlığı və strateji tərəfdaşlıq çərçivəsi**

| Aİ ilə tərəfdaşlıq | Ticarət və investisiyalar | Strateji tərəfdaşlığın çərçivəsi |
|---|---|---|
| Aİ-Azərbaycan | 2023-cü ildə Aİ ölkələri ilə Azərbaycanın ticarət dövriyyəsi 24,8 mlrd ABŞ dolları təşkil edib. 2022-ci ildə 7 milyard avro birbaşa investisiyalar cəlb olunub [3]. | Aİ-Azərbaycan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (1999). Avropa Qonşuluq Siyasəti (2004) və Şərq Tərəfdaşlığı təşəbbüsü (2009). Azərbaycan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) üzvüdür, ÜTT üzvlüyünə danışıqlar prosesini davam etdirir. |
| Aİ - Qazaxıstan | 2023-cü ildə Aİ-nin Qazaxıstanla mal ticarəti 42,4 milyard avro təşkil edib. 2022-ci ildə birbaşa investisiyalar 54,8 mlrd avro təşkil etmişdir [4]. | 2015-ci ildə imzalanmış və 2020-ci ildə qüvvəyə minmiş Genişləndirilmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (EPCA) ilə əhatə olunur. Qazaxıstan 2015-ci ildə ÜTT-yə üzv olub. |
| Aİ - Qırğızıstan | 2023-cü ildə Aİ-nin Qırğızıstanla ümumi ticarəti 2,8 mln avro təşkil edib. Təxminən 5% payla Aİ Qırğızıstanın ümumi ticarətində yalnız kiçik rol oynayır [5]. | Aİ və Qırğız Respublikası 2019-cu ildən Genişləndirilmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (EPCA) üzrə danışıqlar aparıb və 2024-cü ildə imzalanıb [5]. Qırğızıstan 1998-ci ildən ÜTT-nin üzvüdür. |
| Aİ- Özbəkistan | 2022-ci ildə Aİ ilə ümumi ticarət 4,613 mln avro, 2023- də 5,132 mln avro təşkil edib. 2023-cü ildə Aİ-nin idxalı 780 mln avro, Özbəkistana ixrac 4,352 mln avro [12]. | 2022-ci ildə Aİ və Özbəkistan Genişləndirilmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi üzrə danışıqları yekunlaşdırıb (EPCA) imzalanma üçün prosedurlar davam edir. 2019-cu ildə Özbəkistan ÜTT-yə üzv olmaq üçün yeni öhdəliyini ifadə edib. |

| | | |
|---|---|---|
| Aİ -Tacikistan | Aİ ilə ümumi ticarət 2022-ci ildə 405 mln avroya çatıb. 2023-də 500 mln avro, 2023-ci ildə Aİ-nın Tacikistandan idxalı 174 mln avro, ixracı 326 mln avro [6]. | Aİ-nın Tacikistanla münasibətlərinin hazırkı əsasını Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (PCA) təşkil edir (2010). 2023-cü ildə Genişləndirilmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (EPCA) üzrə danışıqlara başlanılıb [6]. Tacikistan 2013-cü ildə ÜTT-yə üzv olub. |
| Aİ - Türkmənistan | 2023-cü ildə idxal 1,204 mln, ixrac 670 mln, dövriyyə 1,875 mln avro təşkil edib [7]. | 1998-ci ildə Türkmənistanla bağlanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi hələ də bütün Aİ-yə üzv dövlətlər tərəfindən ratifikasiya edilməmişdir. Digər əməkdaşlıq sahələri 1989-cu ildə Sovet İttifaqı ilə imzalanmış və sonradan Türkmənistan tərəfindən təsdiq edilmiş Ticarət və Əməkdaşlıq Sazişi əsasında qalmaqdadır. Türkmənistan 2020-ci ildə ÜTT-də müşahidəçi statusu alıb. |

*Mənbə: Müəllif tərəfindən tərtib olunub.*

Cədvəldən göründüyü kimi, dəyişən geosiyasi şəraitdə Azərbaycan və Mərkəzi Asiya ölkələri xarici siyasət seçimlərini genişləndirmək imkanlarından istifadə ediblər. Xüsusilə, 2022-ci ildə bu ölkələr Aİ ilə münasibətlərə maraqlı oldular və müxtəlif sektorlarda əməkdaşlıq üçün ideyalar təklif etdilər. Aİ intensiv dialoq, dəstək nümayişləri və öhdəliklərinə sadiqliyini nümayiş etdirmək üçün yüksək səviyyəli təşəbbüsləri həyata keçirtdi [8].

Azərbaycan Aİ üçün strateji əhəmiyyətli enerji tərəfdaşıdır və Xəzərin enerji resurslarının Aİ bazarına çıxarılmasında mühüm rol oynayır. 2018-ci ildə Aİ və Azərbaycan dialoqu və əməkdaşlığı istiqamətləndirən dörd Şərq Tərəfdaşlığı prioritetləri ilə yanaşı, birgə Tərəfdaşlıq Prioritetlərini təsdiq etdilər. Aİ Azərbaycanın əsas ticarət tərəfdaşı və ən böyük ixrac və idxal bazarıdır. Aİ Azərbaycanla yeni sazişin muza-kirəsini və ÜTT-yə üzvlük danışıqları vasitəsilə Azərbaycanın iqtisadiy-yatının şaxələndirilməsini dəstəkləyir. Aİ investisiyaları Azərbaycanın iqtisadi modernləşməsini tamamlayır, xüsusilə gənclərin təhsili, sahibkarlıq və regional inkişafı dəstəkləyir. Aİ həmçinin ölkənin biznes və investisiya mühitinin yaxşılaşdırılmasında maraqlıdır. Avropa İttifaqının məlumat-lrına əsasən [9], Aİ 3300-dən çox yeni iş yerinin yaradılmasına töhfə verərək, EU4Business təşəbbüsü vasitəsilə 13 000 şirkətə maliyyələşdirmə, təlim və yeni bazarlara ixrac dəstəyi ilə yardım edib. 2009-cu ildən bəri 12 500 Azərbaycan şirkətinə Aİ tərəfindən 227 milyon avro kredit verilib. 10 il ərzində 50 Tvinninq layihəsi çərçivəsində 40-ı tamamlanmış, 6-sı davam edir, 4-ü hazırlıq mərhələ-sindədir [9]. Tərəfdaşlıq və əməkdaşlıq tariflər üstünlüklərini daxil etmir, lakin o, Azərbaycanın standartlarını Aİ standartlarına yaxınlaşdırmaq məqsədi ilə Aİ və

Azərbaycan arasında ticarət kvotalarını ləğv edir. Aİ Azərbaycanın əsas ticarət tərəfdaşıdır və Azərbaycanın ümumi ticarətinin təxminən yarıya qədərini təşkil edir.

Aİ Azərbaycanın ən böyük ixrac bazarı olmaqda davam edir və hazırda Azərbaycanın ixracının 64%-i və idxalının 17,4%-i ilə Azərbaycanın üçüncü ən böyük idxal bazarıdır [9]. Aİ-nin Azərbaycandan idxalı əsasən mineral yanacaq, sürtkü yağları və əlaqədar materiallardan ibarətdir. Aİ-nin Azərbaycandan digər idxalına əsasən kimyəvi məhsul-lar, qida, maşın və nəqliyyat avadanlıqları daxildir. Aİ-nin Azərbaycana ixracında maşın və nəqliyyat avadanlığı üstünlük təşkil edir. EPCA Sazişi ticarət regionalizmini tam şəkildə həyata keçirilməsində mühüm məsələdir. Tərəfdaşlıq sazışı eyni zamanda xarici sərmayələri və əlaqə-lərin diversifikasiyasını asanlaşdırma imkanlarına malikdir. Məsələn, hər iki istiqamətdə Qazaxıstanın Aİ-yə ticarət axınının yaxşılaşdırılması üçün imkanlar yaradır. Belə ki, Kazaxstanın ixracında mineral məhsul-lar, o cümlədən neft, qaz və uran əsas yer tutur və ümumi ixracın təxminən 90%-ni təşkil edir [3]. Şaxələndirilmənin yüksək olmaması Qazaxıstan ixracatını böhran və konyunktur risklərinə məruz qoyur. Aİ və dünya qarşıdakı onilliklərdə istixana qazı emissiyalarını azaltmağı hədəflədiyinə görə, Qazaxıstan mineral yanacaq ixracatından asılılığını azaltmaq üçün Aİ ilə tərəfdaşlıqdan optimal şəkildə istifadə etməlidir. Transregional əməkdaşlıq mexanizmləri Aİ-nin Qazaxıstanla əməkdaş-lığının bu keçidinin uğurlu olması üçün əhəmiyyətlidir. Kənd təsərrüfatı və ərzaq məhsulları ilə bağlı Qazaxıstanla EPCA-ya 2023-cü ildə Protokol üzrə danışıqları bu mexanizmin əsas elementidir. Avropa Komissiyası və Qazaxıstan Xammal, Akkumulyatorlar və Bərpa Olunan Hidrogen Dəyər Zəncirləri üzrə Strateji Tərəfdaşlıq haqqında 2022-ci ildə Anlaşma Memorandumu imzalamışdır. Qazaxıstanla xammal üzrə strateji tərəfdaşlıq Aİ-nin şaxələndirilmiş və dayanıqlı təchizatına çıxışı təmin etmək siyasətinin bir hissəsidir.

İkitərəfli münasibətlərin inkişafını və yeni qarşılıqlı fəaliyyət sahələrinin yaradılması məqsədilə Aİ və Qırğız Respublikası 2019-cu ildən irəli sürülən Genişləndirilmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (EPCA) üzrə danışıqlar aparır. Qırğız Respublikası Aİ-nin davamlı inkişaf və yaxşı idarəetmə üçün xüsusi həvəsləndirici razılaşmadan (GSP+) faydalanır. Bir sıra məhsullarının heç bir vergi rüsumları rejimi olmadan Avropa İttifaqına ixracı ilə Qırğız Respublikası iqtisadiyyatını gücləndirmək imkanı əldə edir [10]. Qırğızıstanın ÜDM-də ən böyük payı xidmətlər (52,4%) təşkil edir, ikinci yerdə mineral hasilatın üstünlük təşkil etdiyi sənaye sektoru (22,2%) gəlir. Digər sənaye sahələrinə kiçik maşın-qayırma, toxuculuq və qida emalı daxildir. Qırğız Respublikasından Aİ-nin ümumi idxalının yalnız təxminən 5%-i GSP+ çərçivəsində verilmiş ticarət üstünlüklərindən istifadə edir. Aİ-nin Qırğız Respublikasından cəmi idxalı 2022-ci ildə

təqribən 147 milyon avro təşkil etmişdir, lakin idxalın əksəriyyəti GSP+ üstünlüklərindən istifadə edilməklə idxal edilir [11].

2022-ci ildə Aİ və Özbəkistan Genişləndirilmiş Tərəfdaşlıq və Əmək-daşlıq Sazişi (EPCA) üzrə danışıqları başa çatdırdı. Bu, Özbəkistanla əlaqələrin möhkəmləndirilməsində və davam edən islahatların dəstək-lənməsində, o cümlədən ticarət sahəsində ortaq marağı əks etdirir. Avropa İttifaqı texniki və maliyyə yardımı vasitəsilə Özbəkistanın islahat gündəmini dəstəkləyir və regional əməkdaşlıq, iqlim dəyişikliyi, yaşıl keçid və rəqəmsallaşma, yaxşı idarəetmə, bütün maraq dairələri üzrə müntəzəm olaraq Özbəkistan ilə əlaqələri genişləndirir. 2014-2020-ci illər ərzində Aİ-nin Özbəkistana maliyyə yardımı 168 milyon avroya çatıb. Əməkdaşlıq proqramı çərçivəsində 2014-2020-ci illər arasında Aİ-nin Özbəkistan üçün inkişaf yardımı kənd yerlərinin inkişafına yönəl-mişdir. Bu dəstəyə su ehtiyatlarının və irriqasiyanın davamlı idarə olunması, bağçılıq, heyvandarlıq, peşə təhsili və yerli inzibati islahatlar üzrə layihələr daxildir. Özbəkistanın ümumi ticarət dövriyyəsinin 9,4%-i Aİ-nin payına düşür [12]. Lakin Çin və Rusiya kimi regional tərəfdaşlarla ticarət də önəmlidir. 2022-ci ildən bəri GSP çərçivəsində ən böyük məhsul bölmələri kimyəvi məhsullardır. İpək, yun və pambıqdan hazırlanmış liflər və parçalar, eləcə də plastik məmulatlar da bütün uyğun məhsulların böyük bir hissəsini təşkil edir. Hal-hazırda üstün-lüklərin az istifadə olunduğu məhsul mineral məhsullardır. Bu bölmə-lərdə güzəştli bazara daxil olmaq hüququ olan məhsulların 15%-i GSP üstünlüklərindən istifadə etməklə idxal ediir. Bu, hazırda heç bir üstünlük verilməyən heyvan və bitki mənşəli yağlar üçün də keçərli deyil. 2019-cu ildə Özbəkistan yaxın gələcəkdə ÜTT-yə üzv olmaq üçün yeni öhdəliklərə maraq göstərir.

Aİ-nin Tacikistandan 2021-ci ildə mal idxalı 162 milyon avro təşkil edib. GSP təxminən 13,7 milyon avro dəyərində məhsulu əhatə edir. Aİ-nin Tacikistana mal ixracı 239 milyon avro təşkil edib [13]. Aİ Tacikistana əsasən maşın, motorlu nəqliyyat vasitələri və əczaçılıq məhsulları ixrac edir. 2023-cü ildə Tacikistan GSP-nin Davamlı İnkişaf və Yaxşı İdarəetmə üçün Xüsusi Təşviq Proqramına rəsmi müraciət etmişdir və onun tətbiqi hazırda Aİ tərəfindən hərtərəfli qiymətləndirmədən keçir.

Avropa İttifaqının Tacikistanla əlaqələri ölkənin 1991-ci ildə müstəqillik əldə etməsindən sonra əhəmiyyətli dərəcədə inkişaf edib. Münasibətlərin hazırkı əsasını 2010-cu ildən qüvvədə olan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏM) təşkil edir. 2023-cü ilin əvvəlində Aİ və Tacikistan Genişləndirilmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (EPCA) üzrə danı-şıqlara başlayıblar. Regional səviyyədə Tacikistan Respublikası 2019-cu ilin iyun ayında qəbul edilmiş Avropa İttifaqının Mərkəzi Asiya üzrə Strategiyasına əsasən tərəfdaşdır. Strategiya Aİ-nin regionda iştirakı üçün

ümumi əməkdaşlıq məqsədlərini və prioritetlərini müəyyən edir, əsas diqqəti Mərkəzi Asiyada dayanıqlığın, rifahın və regional əmək-daşlığın təşviqinə yönəldir. Aİ 5,7% payla Tacikistanın yeddinci ən mühüm ticarət tərəfdaşıdır, ixracın təxminən 6,6%-i Avropa bazarına gedir [13]. Kənd təsərrüfatı sahəsinə gəlincə, pambıq əkini Tacikistanın məhdud əkin sahələrinin ən böyük hissəsini təşkil edir. Buğda, arpa və çəltik, eləcə də heyvandarlıq əlavə kənd təsərrüfatı fəaliyyətləridir. Pambıq emalı və ipək istehsalı, qida və metal emalı sənayesi istehsal sektorunun sütunlarıdır.

## Regional əlaqələrin genişlənməsində inteqrasiya amilinin rolu

Regional ticarət və logistika əlaqələri inteqrasiya effektinın əsas amilləri hesab olunur. Yaxşı inkişaf etmiş nəqliyyat şəbəkəsi malların sürətli və səmərəli şəkildə daşınması üçün əsasdır və iqtisadi inkişafı dəstəkləyə bilər. Lakin hazırda gecikmələr və qeyri-müəyyənlik səbəbindən yüksək logistika xərcləri regional inteqrasiyanın olmamasının əsas səbəblərin-dəndir. Avropa Yenidənqurma və İnkişaf Bankının məlumatlarına [14] əsasən region ölkələrinin əlaqələndirici rolu aşağıdakı müxtəlif səviy-yələrlə xarakterizə oluna bilər.

Azərbaycan Avropa və Asiyanı əlaqələndirən əsas ölkədir. Azərbaycanın trans-regional əməkdaşlıqda iştirakının məqsədi Transxəzər Nəqliyyat Dəhlizinin əməliyyat səmərəliliyinin artırılması və Mərkəzi Asiya biznesinin Azərbaycan və Aİ ilə əlaqəsini inkişaf etdirməkdir. Bu öz növbəsində ticarət və davamlı investisiyaların cəlb edilməsi üçün Mərkəzi Asiya ölkələri arasında regional koordinasiyanın təkmilləş-dirilmə-sində, Transxəzər Nəqliyyat Dəhlizindən istifadə etməklə onların regional və Aİ bazarlarına çıxışını asanlaşdırmaq üçün kiçik və orta müəssisələrin rəqabət qabiliyyətinin artırılmasında əhəmiyyətə malikdir. Azərbaycanın fəal iştirakı ilə Orta Dəhlizin gücləndirilməsi regionda yeni, transformativ iqtisadi imkanlar yaradacaq və mövcud kommersiya dəhliz-lərinə alternativ nəqliyyat marşrutu təqdim edəcək. Avropa Yenidən-qurma və İnkişaf Bankı Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə (ASCO) 42 milyon ABŞ dolları (38,71 milyon avro) kredit ayırmaqla Asiya ilə Avropa arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsinə töhfə verir [15].

Üç Avrasiya nəqliyyat dəhlizi boyunca tranzit konteynerlərin 85 faizi Qazaxıstandan keçir. Qazaxıstan hökuməti Qazaxıstan və Özbəkistanda birgə investisiya layihə-lərinin həyata keçirilməsi üçün sənaye, ticarət və logistika qovşağı kimi çıxış edəcək Beynəlxalq Ticarət-İqtisadi Əməkdaşlıq Mərkəzini inkişaf etdirməyi planlaşdırır [16].

Qırğız Respublikası kiçik iqtisadiyyatına baxmayaraq, regional və qlobal dəyər zəncirlərinə ən yüksək inteqrasiya dərəcəsinə malikdir. Bu, əsasən ölkənin nisbətən daha liberal ticarət rejimi ilə bağlıdır. Qırğız Respublikası və Qazaxıstan Avrasiya

İttifaqının üzvləridir və Qırğız Respublikası nəqliyyat və logistika sənayesini inkişaf etdirmək və beynəlxalq təchizat zəncirlərinə daha da inteqrasiya olunmaq məqsədilə beynəlxalq sazişlərə qoşulmaq üçün səylərini artırır.

Tacikistanda isə qlobal və regional dəyər zəncirlərinə inteqrasiya çox məhduddur və ən yaxşı performans göstərən sektorların təxminən 5 faizini təşkil edir [13]. Tacikistanın tranzit şəbəkəsinin bərpası və yenidən qurulması üzrə Nəqliyyat Sektorunun İnkişaf Proqramı ölkənin nəqliyyat sektorunda təkmilləşdirmələr üçün əsas yaradır, qısa, orta və uzunmüddətli dövr üçün investisiyaların siyahısını müəyyən edir [17].

Türkmənistanda qeyri-neft ixracı ümumi ticarət strukturunun çox kiçik bir hissəsini təşkil edir. Bununla belə, kiçik həcmlərə baxmayaraq, nəqliyyat avadanlığı, elektrik və maşınqayırma məhsulları və kənd təsərrüfatı qlobal və regional dəyər zəncirlərinə gələcək inteqrasiya üçün imkanlar təklif edə biləcək əsas sektorlardır. Özbəkistan qlobal dəyər zəncirləri baxımından ən az inteqrasiya olunmuş Mərkəzi Asiya ölkəsidir. Bununla belə, son liberallaşma səyləri fonunda bunun dəyişə-cəyi gözlənilir. Son dörd il ərzində Özbəkistan hökuməti milli iqtisadiy-yatın liberallaş-dırılması və modernləşdirilməsinə və onun qlobal bazar-lara inteqrasiyasının artırılmasına yönəlmiş sistemli islahatlar həyata keçirir. Özbəkistanın beynəlxalq bazarlarda mövcudluğunun genişlən-dirilməsinin bir aspekti də xarici ticarət yollarının şaxələndirilməsi və alternativ və səmərəli nəqliyyat dəhlizlərinin forma-laşdırılması üçün əlverişli şəraitin yaradılması zərurətidir [18].

Dünya regionlarının qabaqcıl təcrübələrinin və rəqabətin [19], qlobal enerji sektorunda müasir tendensiyaların [20] və logistik strategiyaların [21] təhlili göstərir ki, təchizat zənciri ekosistemi resursların daha səmərəli bölüşdürülməsi və nəqliyyat xərclərinin azaldılması üçün optimallaşdırma tələb edir. Qeyri-adekvat mühit və infrastrukturlar, ticarətin məhdud liberallaşdırılması, sərhəd keçid məntəqələrindəki səmə-rəsizlik regional dəyər zəncirlərinin inkişafı perspektivlərini zəiflədir.

## Nəticə

Tədqiqatın nəticələri Aİ, Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı əlaqələrinin inkişafının bir sıra ikitərəfli və regional səviyyəli iqtisadi problemlərinin mövcudluğunu və onların həllinin aktuallığını göstərir. Xüsusilə Asiya regionu ilə iqtisadi əlaqələrin effektiv şəkildə necə inkişaf etdirməsinin və bu prosesin coxtərəfli regional əməkdaşlıq kontekstində təmin olunmasında Azərbaycanın rolunun mühüm aspekt-lərinə diqqət yönəldilməlidir. Tədqiqatın ən başlıca nəticəsi dünya iqtisadiy-yatının ən yeni inteqrasiya trendini təşkil edən transregional əməkdaşlıq lahiyələrinin Azərbaycan və Mərkəzi Asiya ölkələri müstəvisində formalaşan üstünlükləridir.

Avropa İttifaqı yeni regional prioritetlərə əsaslanaraq, tərəflərin maraqlarının üst-üstə düşdüyü, eləcə də əhəmiyyətli yaxınlaşmalın əldə olunduğu konkret sahələrin inkişafını sistemli müzakirə etməli, problemlərin və daha geniş əməkdaşlıq imkanlarının inkişafına stimulları təmin etməlidir.

Tədqiqatın nəticələri göstərir ki, son onilliklər ərzində Aİ-nin Azərbaycanla əlaqələri davamlı strateji tərəfdaşlıq əsasında möhkəmləndirilmiş, Mərkəzi Asiya ilə əlaqəsi nisbətən yavaş, lakin davamlı şəkildə məhdud əlaqədən mühüm tərəfdaşlığa doğru inkişaf etmişdir. Xüsusilə ticarət, enerji, investisiya və inkişaf yardımı sahələrində Aİ hazırda Azərbaycan və Mərkəzi Asiya ölkələri üçün ən mühüm tərəfdaşlardan biridir. Aİ bu nöqtəyə çatmaq üçün mühüm addımlar atmışdır. Belə ki, 1990-cı illərdə Mərkəzi Asiya Aİ-nin əsas prioritetləri sırasında olmasa da, zaman keç-dikcə bu əlaqələr daha da dərinləşdi. Ümumiləşdirilmiş Preferensiyalar Sistemi, Genişləndirilmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi regional əmək-daşlığı yeni stimullar yaratdı. Son strategiyasında Aİ-nin Azərbaycan və Mərkəzi Asiya üzrə ümumi məqsədi daha dayanıqlı, səmərəli və bir-biri ilə sıx bağlı iqtisadi və siyasi məkan kimi inkişaf etməsi üçün sözügedən dövlətlər ilə daha güclü və perspektivli tərəfdaşlıq qurmaqdır. Bu ümumi prioritetlər və əsas mövzular təhlil edilərkən, praktikada Aİ-nin Azərbaycan və Mərkəzi Asiya üçün prioritetləri üst-üstə düşən məsələlərlə yanaşı, lakin digər regional güclərin inteqrasiya maraqları baxımından artan rəqabət və regional əməkdaşlıq məsələlərinin də mövcud olmasını göstərdi.

Transregional əməkdaşlıq məkanının inkişafı Aİ-nın regionda maraq-larını təmin edən əsas prioritet kimi müəyyən olunmalıdır. Aİ-nin bu istiqamətdə iqtisadi strategiyasına bir sıra amillər təsir edir. Rusiyanın Ukrayna ilə hərbi münaqişəsi nəticəsində Orta Asiyada Aİ təşəbbüs-lərinin inkişafı zəifləmişdir. Bununla belə, Rusiya beş Mərkəzi Asiya ölkəsində və regionda əsas ticarət tərəfdaşı olaraq qalır və regionun iqtisadi inkişafında əsas amillərdən biridir. Regionun iqtisadi inkişafında digər amil ticarət və sərmayə üçün Çinin "Bir kəmər, bir yol" təşəbbü-sünün yaratdığı yeni imkanlardır. Digər regional güclər, o cümlədən Türkiyə, Hindistan və İran nüfuz uğrunda mübarizə aparır, regiona diqqət yetirir və fəal iqtisadisiyasi əlaqələr qurur.

İkitərəfli olaraq, Aİ-nin əvvəllər əlaqələri müəyyən edən əvvəlki Tərəfdaşlıq və Əməkdaşlıq Sazişlərini (TƏM) əvəz etmək üçün Mərkəzi Asiya ölkələri ilə Genişləndirilmiş Tərəfdaşlıq və Əməkdaşlıq Saziş-lərini (EPCA) hazırlaması bu müstəvidə iqtisadi maraqları yaxınlaşdırmağa xidmət edən əlverişli mexanizmlər kimi möhkəmləndirməyə kömək etmişdir. Bu sazişlər investisiyalardan tutmuş enerji, nəqliyyat, sənaye və s. kimi müxtəlif sahələrdə əməkdaşlığı təşkil edir. Aİ-Azərbaycan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (1999), Mərkəzi Asiya Regionu dövlət-ləri olan

Qazaxıstanla EPCA (2020) ratifikasiya edilib, Qırğızstanla (2024) imzalanıb. Hazırda Özbəkistanla EPCA imzalanmaq üçün hazırlanır, Tacikistanla danışıqlar hələ də davam edir, Türkmənistanla isə yalnız müvəqqəti ticarət sazişi mövcuddur.

Aİ geniş və əhatəli əməkdaşlığa bu məqsədə çatmaq istəyirsə, onun siyasəti enerji və ticarət, o cümlədən investisiya əlaqələri və digər elementlər daxil olmaqla, Aİ maraqlarından kənara çıxan, region ölkələrinin inkişaf maraqlarını nəzərə alan iqtisadi və daha dərin texnoloji əlaqələr ilə dəstəklənməlidir. Bu öhdəliyə nail olmaq üçün aşağıdakı bölmələr, xüsusilə Aİ-nın regiona dərin yaxınlaşma nöqtəsinə malik ola biləcək bəzi əsas sektorlara dəstəyini artırmalıdır. Bu sahələr Azərbaycanın, Mərkəzi Asiya ölkələrinin milli prioritetlərinə, eləcə də Aİ-nin Mərkəzi Asiya strategiyasında formalaşdırılmış siyasət prioritet-lərinə əsaslanmalıdır. Bütün məsələlər əhəmiyyətli dərəcədə vacib hesab olunur, davamlı inkişaf, resurs idarəçiliyi və kənd təsərrüfatı ilə bağlı olan məsələlər Avropa İttifaqı üçün xüsusi əhəmiyyət kəsb etməlidir. Bu yaxınlaşmanın əsas mexanizmi kimi transregional əməkdaşlıq lahiyələrini genişləndirmək lazımdır. Nəzərə almaq lazımdır ki, dünya iqtisa-diyyatına yeni inteqrasiya meyili əhəmiyyətli dərəcədə transregional lahiyələrə əsaslanır.

Bu tədqiqatın nəticələri əsasında qoyduğumuz suala cavab vermək istərdik. Yeni regionalizm regionda qarşılıqlı maraqları nəzərə ala və işləyə bilərmi? Böyük ehtimalla, bəli, əgər tərəfdaşlıqda maraqlar və məhdudiyyətlər qarşılıqlı tamam-lanarsa. Azərbaycan və Mərkəzi Asiya ölkələri ənənəvi regional əlaqələri yenidən müəyyənləşdirməyə, onları daha balanslı etməyə çalışaraq, Aİ-nin gündəliyindəki dəyişikliklərə yaxınlaşdıra bilən və milli maraqlarla üzvi şəkildə əlaqələndirən regional inkişaf strategiyasına transformasiyanı təmin edə bilər.

## Ədəbiyyat

1. EU trade relations with Central Asia. Facts, figures and latest developments, https://policy.trade.ec.europa.eu/eu-trade-relationships-country-and-region/countries-and-regions/central-asia_en
2. Xarici bazarlara çıxış formaları, https://azpromo.az/az/page/ixracat/xarici-bazara-cixis
3. Avropa İttifaqı və Azərbaycan, https://www.eeas.europa.eu/azerbaijan/avropa-ittifaqi-v-azrbaycan_az?s=217
4. EU trade relations with Kazakhstan. Facts, figures and latest developments, https://policy.trade.ec.europa.eu/eu-trade-relationships-country-and-region/countries-and-regions/kazakhstan_en
5. The European Union and the Kyrgyz Republic, https://ec.europa.eu/transparency/documents-register/detail?ref=SWD(2023)368&lang=en
6. EU-TAJIKISTAN RELATIONS, EEAS-CA MINISTERIAL FACTSHEETS-Tajikistan-Oct2023.pdf,https://www.eeas.europa.eu/sites/default/files/documents/2023/EEAS-CA%20MINISTERIAL%20FACTSHEETS-Tajikistan-Oct2023.pdf

7. European Union Imports from Turkmenistan, https://tradingeconomics.com/european-union/imports/turkmenistan
8. Anna Matveeva, Published on April 13, 2023A New Opening for EU–Central Asia Relations?, https://carnegieendowment.org/research/2023/04/a-new-opening-for-eu-central-asia-relations?lang=en&center=europe
9. FACTS AND FIGURES ABOUT EU-AZERBAIJAN RELATIONS, eap-factsheet_azerbaijan_en.pdf, https://euneighbourseast.eu/wp-content/uploads/2020/06/eap-factsheet_azerbaijan_en.pdf
10. Register of Commission Documents, https://ec.europa.eu/transparency/documents-register/detail?ref=SWD(2023)368&lang=en
11. Kyrgyzstan, https://gsphub.eu/country-info/Kyrgyzstan
12. The European Union and Uzbekistan, https://www.eeas.europa.eu/uzbekistan/european-union-and-uzbekistan_en?s=233
13. EU-TAJIKISTAN RELATIONS,EEAS-CA MINISTERIAL FACTSHEETS-Tajikistan-Oct2023.pdf, https://www.eeas.europa.eu/sites/default/files/documents/2023/EEAS-CA%20MINISTERIAL%20FACTSHEETS-Tajikistan-Oct2023.pdf
14. Sustainable transport connections between Europe and Central Asia, Final Report Submitted on 16/06/2023The European Bank for Reconstruction and Development (EBRD), file:///C:/Users/User/Downloads/ebrd-sustainable-transport-connections.pdf
15. EBRD lends US$ 42 million to Azerbaijani shipping company? https://www.ebrd.com/news/2024/ebrd-lends-us-42-million-to-azerbaijani-shipping-company.html
16. W.A. Sánchez and K. Auyezova (2022). The trans-Caspian corridor: Kazakhstan's Silk Road? The Diplomat, 12 May 2022. https://thediplomat.com/2022/05/the-trans-caspian-corridor-kazakhstans-silk-road/.
17. S. Asadov (2012) Tajikistan’s Transit Corridors and their Potential for Developing Regional Trade, Working paper no. 6, Bishkek, University of Central Asia, Institute of Public Policy and Administration. https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=2943859.
18. F. Juraev Transport corridors central Asia: Brussels-Uzbekistan. Brussels-Uzbekistan Friendship Group. Available at: www.brusselsuzbekistan.org/transport-corridors-central-asia
19. Aliyev, M., Guliyev, M.,Abdullaev, U., Huseynova, L., & Azizova, G. (2024). Strategies for improving the competitiveness of agricultural products and China's trade policy in the world market. *Scientific Horizons*, 27(11), 129-140. doi: 10.48077/scihor11.2024.129.
20. Guliyev, M., Rustamova, S., Makhmudova, V., Azizov, T., and Huseynli, O. (2023). The modern status and prospects for further development in the Australian energy sector: transformation, external economic relations, investment climate. Polityka Energetyczna – Energy Policy Journal, 26(3), pp.47-64. https://doi.org/10.33223/epj/166436
21. Mushfig Guliyev, Azer Agarzayev, Lamiya Huseynova, Orkhan Huseynli and Samira Rustamova, Strategy of Chinese energy companies in the world market of oilfield services and logistics services: Regional aspects, J. Renewable Sustainable Energy 16, 015901 (2024); doi: 10.1063/5.0178771